Oktyabrın 21-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Keyfiyyətə nəzarət və monitorinq sektorunun məsləhətçisi vəzifəsinə namizədlər Günay Baxşiyeva, Gülər Hüseynova, Gülsüm Məmmədzadə və Nilufər Məmmədovanın müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 3 şikayətin təmin edilməsi və 1 şikayətin təmin edilməməsi barədə şura tərəfindən qərarlar qəbul olunub.